YOXLAMA

Sənsiz itib yolum, sönüb ulduzum,
Sənsiz tamı yoxdu çörəyin, duzun,
Bir gün ayrılığın illərdən uzun,
Dayan, yoxluğunla yoxlama məni.

Yetim uşaq kimi qəhərlənmişəm,
Qəm əkib, qüssədən bəhərlənmişəm,
Sənsiz hər baxışdan zəhərlənmişəm,
Səni də öldürrəm, qoxlama məni!

Ağrı qırış olub bitər üzündə,
Duam, qibləgahım gedər üzündə,
Səni itirərsəm bu yer üzündə,
Bu yerin üstündə saxlama məni!

Yetmiş ildi dünyanın altıda biri qırmızı alova bürünüb yanır. Kənarda dayananlar da, alovun içindəkilər də bilir ki, bu söndürülməlidir. Amma öz-özünə yanıb qurtarmayana qədər yaxın düşmək olmur. Mübarizə adına qalxırsan, səni də yandırır. Amma sərçə kimi hərə bir damla su atsa yanğın böyüməz. O tək-tək damlalar zamanı nə qədər irəli çəkir, yanğının tez sönməsinə nə qədər xidmət edir? – bunu hesablamaq çətindir. Amma vaxtın dəyirmanını işlədən də o damlalardır.

XƏBƏR GÖZLƏYİRƏM

Xəbər gözləyirəm... Kimdən; hayandan?
Hansı məmləkətdən, hansı zamandan?
Hansı ocaqlarda alışan közdən?
Gözümə yığdığım hansı dənizdən?
Cavab almadığım neçə sualdan,
Uzaq xatirədən, sirli xəyaldan
Xəbər gözləyirəm, şirin, xoş xəbər.
Taletək dalımca dolaşıb gəzən,
Məni axtarmaqdan yorulmuş xəbər...

Gələ bir məktubun qanadı üstdə,
İsti təbəssümdə, doğma nəfəsdə.
Dərələr dolduran gur seldə gələ,
Bəxtimə açılan könüldə gələ.
Hər dost sevgisindən gətirə bir pay,
Bağlı qapıları açа taybatay.
Cücərə baharın otları kimi,
Şığıya bir sürət qatarı kimi.
Lap elə ümidin son nidasında,
Lap elə ölümün astanasında –
O axtara məni, o tapa məni.

Gələ, gözlədiyim xəbərim gələ,
Gələ, o əbədi zəfərim gələ.
Görəm ki, süfrəmin başında bir gün,

Bir xəbər oturub əziz qonaqtək.
Görəm ki, evimin gur işığında
Alışır bir sevinc, yanır bir ürək...

Xəbər gözləyirəm, kimdən, hayandan,
Hansı ümidlərdən, hansı gümandan?
Bağlı sərhədlərin üstündən aşan,
Yolları sorğusuz gəzib dolaşan,
Ayrı sahillərə körpülər salan,
Adsız şəhidlərin heykəli olan,
Mənə ana kimi yanan bir xəbər.
Məni Vətən kimi duyan bir xəbər!
İtmiş sevgi kimi qayıdıb gələn,
Ömrün baharını oyadıb gələn,
Müştuluq bir xəbər, şirin bir xəbər,
Şəfəqdən don geyən aydın bir səhər.

May, 1977

GERİ DÖNMƏLİYİK

Astara yolları uzanıb gedir
Təbrizə bir baş.
Geri dönməliyik biz isə, qardaş.
Qabil

Sözündə həsrətim yandı elə bil,
Sabaha nələri tanıtmalıyıq? –
Astara çayından Bakıya deyil
Bu gündən keçmişə qayıtmalıyıq!

Muzeylər küncündə, tarixim çin-çin,
Karvanlar yurdumdan nələr daşıdı!
Geriyə qayıdış şair qəlbinin
Bəlkə, ilkinliyə çağırışıdı,
Bəlkə, gələcəyə çağırışıdı.

Andımdı, yazımdı – torpaqda izim.
Qara torpağıma üzü ağ deyək.
Zirvəmiz arxada qalıbsa bizim –
Geriyə dönməyə ucalmaq deyək!

Geri dönməliyik! – Asanmı məgər?
Düzlərə gör neçə duman enibdir.
Təbrizə uzanan bu yollar təki,
Tarixin özü də çəpərlənibdir.

Bizi özümüzdən ayrı salmağa
Məktəblər qurulmuş, fənlər yaranmış,
Milləti atomtək parçalamağa
İndi zəncirvarı fəndlər yaranmış...

Nə sayım, birdirmi, beşdirmi onlar:
Var quru sərhəddi, var su sərhəddi.
Fikrimi, ağlımı əlimdən alar
Ətalət sərhəddi, qorxu sərhəddi.

Kökümlə arama uçurum salar,
Əlifba sərhəddi, yalan sərhəddi.
Tarixin üzündə çapıq tək qalar
Millətin ruhunu talan sərhəddi.

Sərhədlər çəkilib qaş ilə gözə,
Ayaqsız ləpirik, mənzilsiz yoluq.
Hər adam başına sərhəd bölünsə
Dünyada, bəlkə də birinci olluq...

Yollarım qırılmaz, baharım solmaz,
Araz qırağında batmayaq yasa.
Sərhəd çəkilməklə millət ayrılmaz –
Ruhunda ayrılıq yaranmayıbsa!..

BİR QARIŞ VƏTƏN TORPAĞI

Düşmən kəsdi qapını
ağır şərtləri ilə...
Ölüm çəpəri çəkdi
sərhəd boyu bir səhər.
Keçib qədim sazişin,
əhd-peymanın üstündən
gəldilər tufan kimi
qaraxəbər elçilər.
Nizələrin ucunda
çırpdılar qapılara
dava eləməməkçin
içilmiş köhnə andı.
Hökmdarın qanında
qəzəb odu dolandı.
Ancaq boğdu hirsini –
Səbriylə buxovladı
qəzəbini, dərdini.
Dinlədi düşmənin
ilk hiyləgər şərtini...
Qılınc zərbəsi kimi
əli yardı havanı.
Güldü: "Deyin qonşuma,
dayandırsın davanı!
Bəxşişdi, istəyibsə
od qanadlı ürgəni.
Mənim atıma görə
zəmilər tapdalansa,
qisas odu qalansa,
xalqım qınayar məni!..
... Elçilər çapıb getdi
qızıl ürgəylə birgə
O qaldı, bu hökmünə
dikəlib heyrət ilə
arxasında dayanan
abad ölkəylə birgə!..

Gözlədi intizarla,
bildi at bəhanədi.
Bu itki ürəyində
gizlicə qövr elədi.
Gecə keçdi, təzədən
düşmən axıb şəhəri
üzüktək dövrələdi...
Yenə gəldi elçilər
yolları döyə-döyə.
Əvvəlkindən daha sərt.
daha qansız, amansız
tələbnamə verdilər
hökmdara "hədiyyə".
Nə yazırdı yağı, nə?
"Verməsə saraydakı
ən gözəl hərəmini,
bu olacaq qanlı bir
dava üçün bəhanə..."
Ölkə əsdi bu şərtdən,
ordu silah sarıdı.
Bircə baxış himinə
dayandılar müntəzir.
O gördü qəzəblənib
bu tələbdən, bu şərtdən
igidlər düşmən üstə
atılmağa tələsir.
Qalxdı qüdrətli əli
sükut işarəsitək.
Dedi: "Səbrli olun,
ən gözəl hərəmimi
istəyiblər, gedəcək".

Boşa çıxdı yenə də
düşmənin dava üçün
itilənmiş niyyəti.
Susub durdular bu an,
çaşdılar hökmdarın
bu qəti qərarından.

Düşmən yenə gizlicə
bəhanələr aradı...
Yenə ordu şəhəri
zəncir kimi sarıdı.
Yenə də baş endirib
dilləndilər elçilər:
"Əl çokdik biz də daha
müharibə fikrindən.
Sonuncu şərtimiz də
çox asandı, çox asan:
Ölkəmz arasında
on addımlıq o bomboş,
o gərəksiz torpağı
bizə bağışlamalısan...
Elçilərin son sözü
dondu ağızlarında,
Hökmdar qalxdı birdən,
Dedi: "Ey düşmənlərim,
döyüşə hazıram mən!
Mənim özümün idi –
qurban verdim atımı,
"hədiyyə" getdi yarım...
Ancaq torpaq verməyə
mənim nə ixtiyarım?!
Nədir sizin həddiniz?
Nə cürətlə altında
ulu babalarımın
ruhu yatan torpağa
gərəksiz söylədiniz?!"

...Sıyırdı qılıncını,
özü getdi qabağa.
Yurdun ot bitirməyən
bir qarış torpağıyçın
Vətən qalxdı ayağa!..

1978

QAN YADDAŞI

Nüşabə qalasının
Yarıuçuq bürcündə,
Boy atıb qalınlaşan
Zoğalığın içində
Bir uşaq oxuyurdu
Bu dünyadan ayrılıb.
Zil səsi qılınc kimi
Boğazından sıyrılıb.
Qalanın sükutunu
Qovurdu sola-sağa.
Qovurdu keçmişlərə,
Əsr-əsr uzağa...
Nə burda min il əvvəl
oxunmuş havalardan,
Nə torpağa qarışmış
qanlardan, davalardan
Vardı onun xəbəri.
Gözündə bu dünyanın
sevinc dolu səhəri;
Hələ tarix dərsinə
Qulaq asa bilməyir.
Yəqin hərfləri də
Hələ yaza bilməyir.
Bəs onun səsindəki,
Mahnının sözündəki
Bu qədim haray nədir? –
Ürəyimi göynədir.
Bəs o kiçik yay nədir?
Çiynindən aşırıbdır.
Zoğal budaqlarından
neçə ox da qırıbdır.
Əlindəki bıçaqla
ucunu itiləyir.
Onu hansı həvəsdi
o qədim döyüşlərin

yoluna itələyir?!
Hansı hava dolanır
bu uşağın başında?
Yəqin tarixlərin də
unutduğu həqiqət
çıxmır qan yaddaşından!
Onun körpə qəlbində
dövr eləyən al qanın
hər zərrəsi tanışdır.
Yəqin öz "qan dilində"
uşağa gecə-gündüz
tarix dərsi danışır!
Qəlbinin sahilinə
dəyib-dəyib qayıdıb
bu divarın dibində
axmış qan dənizləri.
Ayağını maqnit tək
çəkib aparır yəqin
torpağın altındakı
ulu baba izləri!
Məni görcək yarımçıq
saxladı o mahnını.
Gördüm gözlərindəki
işıq burulğanını.
Gördüm baxışı dolu
nağıldır, əfsanədir.
Soruşdum: "oxuduğun
mahnının adı nədir?"
Güldü, gözü qıyıldı,
Gülüşü də nəğməydi –
yayıldıqca, yayıldı.
Dedi: "bilmirəm, əmi
Təkəm də, oxuyuram.
Heç sözünü bilmirəm
özümdən toxuyuram"
Özündən "toxuyurdu"
mahnısını o uşaq.

İçoridən gələn səs
ona "oxu!" deyirdi.
Qəhrəman bir torpaqdan
gələn qəhrəman həvəs
Al əlinə bu yayı,
Vur bu oxu deyirdi...

Bərdə, 1976

YARDIMLININ DAĞLARI

Yardımlının ay dumanlı dağları,
Həm o yanlı, həm bu yanlı dağları.
O gədiyi bu gədiyə qatmağa
Çox ümidli, çox gümanlı dağları.
İlxı ötər, el yolunu toz elər,
Qəmli dursa, yadlar baxıb söz elər.
Gün gələr ki, əyri qəddi düzələr.
Biz qoymarıq ah-amanlı dağları!

ANAYA MƏKTUB

Əziz ana, nə zaman ki,
Mənim işim tərs gələrdi –
Mənə yaman hirslənərdin.
Deyərdin ki, bir qulaq as,
Səndən mənə oğul olmaz.
Düşünərdim: vaxt ötüşər,
Oxuyaram, yaşa dollam.
Anam görər böyüyəndə
Ona necə oğul ollam...
İllər keçib, boy atmışam,
Yekəlmişəm, əziz ana.
Tay-tuşumun arasında
Sözü ötən bir cavanam.

Daha çatmır qulağına
Kiminləsə dalaşmışam.
Filan qızı görüm deyə
Evlərinin ətrafında
Gecəyəcən dolaşmışam.
Kitablara baş qarışıb,
İtirmişəm qoyunları.
Daha çatmır qulağına
Gündə yüz cür oyunlarım.
Meşələrdə azıb qaldı
Dəcəlliyin qoşunu da.
Yaman atdım
"Kitabların daşını da".
Məndən yenə gileylisən,
Ana, bu gün eşitmişəm.
İndi bildim mən əvvəllər
Necə böyük səhv etmişəm.
Bilməmişəm yaşa dolmaq,
Şair olmaq, alim olmaq
Oğul olmaq deyil hələ.
Böyüklər var bircə gün də
Heç oğulluq etməmişdir.
Alimlər var anasının
Dar gününə yetməmişdir.
İndi bildim nə istedad,
Nə vəzifə, nə də ki ad
Oğulluğa bəs deyilmiş.
İndi bildim dediklərin
Elə-belə söz deyilmiş.
Xəstəsənmi, yorğunsanmı,
Aydan-aya bilməmişəm.
Dar günündə, tək günündə.
Köməyinə gəlməmişəm.
Düz demisən sən o sözü,
Düz demisən, iki gözüm!
Eh, görünür, əzəl gündən

Analarda bəxt olmayır.
Qızlar üçün vaxt tapıram,
Sənin üçün vaxt olmayır.
Kinolara, görüşlərə,
Məclislərə, çağrışlara,
Quru-quru çıxışlara.
Yüz qeybətə, yüz söhbətə,
Yad ellərə səyahətə
Vaxt tapıram.
Sənin üçün vaxt olmayır.
Taleyə bax övlad kimi
Xidmət üçün vaxt olmayır.
Eh, görünür, əzəl gündən
Analarda bəxt olmayır...

XOŞBƏXT OLMAQ

Yolu çətin imiş xoşbəxt olmağın,
Doğruluq, duruluq bəs eləmirmiş.
Sən də düz yoldasan, mən də düz yolda,
Amma günahkarıq, nə qəribə iş!

Amma günahkarıq –
Ürəyimizin
Giley pərdəsini açа bilmirik.
Bu köhnə yuva da istəmir bizi,
Köhnə yuvadan da qaça bilmirik.

Baxışın qəmləri çəkibdi zilə,
Könlümdə cavabsız suallar yatır.
Nə gedib yetişmək olur mənzilə,
Nə geri dönməyə qüvvəmiz çatır.

Nə bir söz tapırıq təsəlli üçün,
Nə ömrün baharı isidir səni.
Sellənən göz yaşın dağıdır hər gün.
Köhnəlmiş məhəbbət körpülərini.

Yolu çətin imiş xoşbəxt olmağın,
Sevgi də, ilqar da bəs eləmirmiş.
Gözümüz günahsız-günahsız baxır,
Amma günahkarıq, nə qəribə iş...

* * *

Yanar için-için bir eşqin qəmi,
Ürəyim heyrətdən donub qalıbdır.
Xəfif gülüşlərin qaranquş kimi
Kimin yaddaşına qonub qalıbdır?

Sən keçən yolları arayım, gəzim,
Görüm ki, gəncliyin harda ötüşüb.
Pozum izlərimlə o izləri ki,
Sənin izlərinlə yanaşı düşüb.

Neçə xatirən də qoy dönsün selə,
Qalmasın keçmişdən sondə bir nişan.
Mən öz səksəkəli öpüşlərimlə
Silim baxışları yanaqlarından.

Bir başqa dünyaya atıldıq bu gün,
Gül bu arzuma da, de ki, dəlisən.
Sən mənim ömrümə doğulmaq üçün
Bütün keçmişini öldürməlisən...

Hər kəs bilir ki, onun çiynində nə isə qeyri adi bir yük var, amma ciddi-cəhdlə bu yükü unutmağa çalışır. Çünki yada salan kimi etiraf etməlidir ki, belə yaşamaq olmaz. Bəs necə yaşayasan? Hələ ki, ayrı cür yaşamağın da yolu tapılmayıb. Beləcə bir nəsil bir-birinin üzünə baxmaqdan çəkinə-çəkinə dünyada hər şeydən danışır və ürəyini əridə-əridə çalışır ki, ən başlıca şeydən danışmasın. Axı o qeydən danışan kimi nə isə bir iş görmək lazım gələcək. Bu adamlar üçün isə bulaqdan, qeyrətdən, qələbədə, Təbrizdən, kainatdan danışmaq balaca bir iş görməkdən daha asandır.

ŞAİRLİK NƏYİMƏ GƏRƏKDİR MƏNİM?

Şairlik nəyimə gərəkdir mənim? –
Şerdə təsəlli aramaq üçün!
Təzə söz deməyə gümanım azdı,
Yazıram köhnəni qorumaq üçün...

Söz qoşmaq şan-şöhrət gətirir məgər? –
Söz var üzüqara, söz var üzü ağ...
Dünyada ən böyük sənətdir, demə,
Öz ana dilinə keşikçi olmaq!

Öz ana dilimə, ana sözümə
Bir təzə kəlmətək qoşula bilsəm;
Sinəmə səpilən od yağışından –
Yad sözdən, yad ruhdan yaşına bilsəm,
Demək, çiçəklənən cavan budağam,
Mən söz əsgəritək yaşayacağam!

Şerim! Müdafiə məğlubiyyətsə,
Hər hücum qələbə deyildir, anla!
Sən qalib gəlirsən bəzən bir sözü
Zirehə bürüyüb qorumağınla!..

Bu dil tükənməyən xəzinəm, varım,
Ulu soylarımın müqəddəs izi...

Yurdumda ucalan qalalarımın
"Ana" kəlməsidir ən birincisi!

"Araz" kəlməsidir, "can" kəlməsidir
Mənim damarımdan qan kimi axan.
Tarixə çox qurban verdim, bəsidir,
Qurbanlıq düşməyir məğrurluğumdan...

Şairlik nəyimə gərəkdir?
Deyim!
Şerdə təsəlli aramaq üçün.
Təzə söz deməyə gümanım azdı,
Yazıram köhnəni qorumaq üçün.
Özümü qorumaq odlar içində,
Adımı qorumaq adlar içində,
Mənim bu narahat qəlbim sınmasın
Xoşbəxtlər içində, şadlar içində!

Son dəbli geyimdir yalançı şadlıq,
Son dəb dodaq rəngi – yalançı gülüş.
Ən böyük xoşbəxtlik böyük Doğrunu
Xırda yalanlardan qorumaq imiş!

Xırda sevgilərin bazarı ucuz,
Qəlp pulun, qəlp sözün qılıncı iti.
Necə qoruyasan hiylə odundan
Kəpənək qanadlı bir məhəbbəti.
Ürək alverindən, söz alverindən
Keçən İnam adlı əbədiyyəti?

Şairlik nəyimə gərəkdir mənim?
Şəhərdə bir kəndin borc duyğusuyam.
Dilimdə təzə söz bitirməsəm də,
Şadam ki, köhnənin qoruqçusuyam!..

5.III.1980

ƏLƏK

Metroda bir qarı əlində ələk aparırdı...

Ay nənəcan, hardan aldın
əlindəki bu ələyi?
O yadıma saldı mənim
təndir adlı, ocaq adlı
bərəkətli sadəliyi.
Xatirəmdə bahar güldü,
xatirəmə gül bələndi.
Bir xırmanda vəl qoşuldu,
sarı buğda təpələndi.
Evnə çağı
qaranəfəs külək gəldi.
Sovruqçular
əllərində kürək gəldi.
Dəyirmanlar gur işlədi,
dəstərxanda ələk gəldi.
Təndirlərin külfəsində
od işardı,
tabaq-tabaq çörək gəldi.

Anamızın əli unlu, üzü unlu,
Həyətdəki izləri də unlu idi.
Təndirimiz od dilində danışardı,
Təndirlərin həndəvəri tünlük idi.
Ələklərdə unla birgə
ələnərdi duyğumuz da.
Kökə-kökə, tikə-tikə
bölünərdi sevincimiz,
bölünərdi qayğımız da.
Öz duzumuz, çörəyimiz...
halallıqda şax böyüdük.
Təndirlərin dövrəsində
gözü-könlü tox böyüdük.